

# Dəniz nəqliyyatı:

# İnstitusional islahatlar və beynəlxalq etimad

Azərbaycanın dənizçilik sahəsində zəngin irsi və tarixi təcrübəsi onu Xəzər hövzəsinin ən güclü dəniz nəqliyyatı mərkəzlərindən birinə çevirmişdir. Bu sahədəki inkişafın təməli hələ XIX əsrin ortalarında qoyulmuş və ardıcıl texniki, iqtisadi və institusional yenilənmələrlə bu günədək davam etdirilmişdir. Azərbaycan Dəniz Gəmiçiliyinin formalaşması 1858-ci il mayın 21-də "Qafqaz və Merkuri" Səhmdar Cəmiyyətinin yaradılması ilə başlanmışdır. Donanmanın genişlənməsi ilə paralel texniki bazaya tələbat da artmış, nəticədə 1866-cı ildə Bakıda bu cəmiyyətin təşəbbüsü ilə ilk mexaniki gəmi təmiri zavodunun əsası qoyulmuşdur. Müəssisə sonralar Xəzər hövzəsində gəmiqayırma və təmir sənayesinin mərkəzinə çevrilmişdir. XIX əsrin sonları və XX əsrin əvvəllərində Xəzər dənizi vasitəsilə daşınan yüklərin həcminin kəskin şəkildə artması infrastrukturun da inkişafını zəruri etmişdir. Bu dövrdə dəniz limanlarının sayı artırılmış, yeni körpülər, yük anbarları və yükqaldırıcı kranlar istifadəyə verilmişdir. Bu texnoloji irəliləyişlər neft sənayesinin genişlənməsi ilə birgə Xəzərin nəqliyyat və ticarət əhəmiyyətini də xeyli artırmışdır. Sovet dövründə isə Azərbaycan Dəniz Gəmiçiliyi yeni inkişaf mərhələsinə qədəm qoymuşdur. İllər keçdikcə donanma həm ölkə daxilində, həm də xaricdə inşa edilmiş müasir və funksional su nəqliyyatı vasitələri ilə yenilənmişdir. Pambıq, taxta-şalban, neft məhsulları və digər yüklərin daşınması üçün ixtisaslaşdırılmış gəmilər, xüsusilə "çay-dəniz" tipli tankerlər dənizçilərin istifadəsinə verilmişdir.

1962-ci ildə Xəzər Dəniz Nəqliyyatı Layihə-Axtarış Elmi-Tədqiqat İnstitutu tərəfindən hazırlanmış layihə əsasında həyata keçirilən Bakı-Türkmənbaşı gəmi-bərə keçidinin istifadəyə verilməsi əlamətdar hadisələrdən biri olmuşdur. Bu infrastruktur layihəsi Xəzərin iki sahilini birləşdirməklə, həm də regiondaxili nəqliyyat və ticarət dövriyyəsini əhəmiyyətli dərəcədə sürətləndirmişdir. Digər mühüm mərhələ isə 1960-cı illərdə Volqa-Balt kanalı vasitəsilə Azərbaycan gəmilərinin dünya sularına çıxması idi. Bu addım



ölkənin dənizçilik tarixində beynəlxalq səviyyəyə inteqrasiyanın başlanğıcı kimi qiymətləndirilə bilər. Beləliklə, Azərbaycan Dəniz Gəmiçiliyi Xəzərlə məhdudlaşmayan, Avropa və dünya dənizlərinə çıxış imkanları əldə edən strateji nəqliyyat aktoruna çevrilmişdir.

Azərbaycan Xəzər dənizinə çıxışı olan tarixi və iqtisadi baxımdan dənizçilik ənənələrinə bağlı dövlətdir. Xəzər dənizi üzərindən daşınan yük axınları, o cümlədən Bakı Beynəlxalq Dəniz Ticarət Limanı kimi strateji infrastrukturlar ölkəmizin tranzit-logistika kimi əvəzsiz rolunu ortaya qoyur. Dənizçilərimiz həm də regional və beynəlxalq nəqliyyat əlaqələrinin genişlənməsində, ölkənin enerji və yük daşımalarında dayanıqlılığın təmin edilməsində əsas qüvvə kimi çıxış edirlər. SSRİ-nin süqutu ilə postsovet məkanında bir çox dövlətlərin hərbi və mülki donanmaları dağıdıldı, ya da qeyri-effektiv şəkildə idarə olundu. Lakin Azərbaycan mənzərədən fərqli olaraq, öz dənizçilik ənənəsini qoruyub saxladı. Bu, heç şübhəsiz ki, müasir Azərbaycan dövlətinin banisi, Ümummilli Lider Heydər Əliyevin uzaqgörənliyi və iradəsi sayəsində mümkün olmuşdur. Heydər Əliyev tərəfindən hələ sovet dövründə və daha sonra müstəqillik illərində dəniz nəqliyyatı sahəsində atılan strateji addımlar bu sahənin sonradan ölkə iqtisadiyyatında mühüm yer tutmasına şərait yaratdı.




Ulu Öndərin müəyyən etdiyi strateji xətt Prezident İlham Əliyev tərəfindən uğurla davam və inkişaf etdirilir. Müasir mərhələdə dövlət başçısının tapşırıq və tövsiyələri əsasında nəqliyyat sektorunun inteqrasiya olunmuş və rəqabətədavamlı sistemə çevrilməsi istiqamətində genişmiqyaslı layihələr reallaşdırılır. Xüsusilə, Azərbaycan ərazisindən keçən beynəlxalq nəqliyyat dəhlizlərinin (Şimal-Cənub, Şərq-Qərb və Orta Dəhliz) formalaşdırılması və onların təhlükəsizliyinin təmin olunması dəniz nəqliyyatının strateji əhəmiyyətini daha da artırır. Bu kontekstdə Bakı Beynəlxalq Dəniz Ticarət Limanının müasir tələblərə uyğun yenidən qurulması, Bakı Gəmiqayırma Zavodu və digər gəmi təmiri müəssisələrinin fəaliyyətinin təkmilləşdirilməsi xüsusi əhəmiyyət kəsb edir. Bütün bu təşəbbüslər nəticəsində hazırda Azərbaycanda dənizçilik sektoru yalnız nəqliyyat xidməti sahəsi deyil, həm də yüzlərlə texniki, mühəndis və inzibati ixtisas üzrə yüksək ixtisaslı kadrları özündə birləşdirən kompleks sistemdir. Ölkə üzrə limanlar, gəmiqayırma zavodları, təmir müəssisələri və tədris mərkəzləri daxil olmaqla müxtəlif strukturlarda 20 mindən artıq dənizçi fəaliyyət göstərir.

Dəniz nəqliyyatının inkişafı infrastrukturun modernləşdirilməsi və liman-logistika imkanlarının genişləndirilməsi ilə məhdudlaşmır. Bu sahənin beynəlxalq standartlara uyğun şəkildə institusional təşkili, peşəkar dənizçilərin hazırlanması və sertifikatlaşdırılması da paralel şəkildə inkişaf etdirilmişdir. Azərbaycanın sözügedən istiqamətdə atdığı addımlar Beynəlxalq Dəniz Təşkilatı (IMO) və qabaqcıl dəniz dövlətlərinin ekspert dairələri tərəfindən müsbət qiymətləndirilib. Bu da ölkəmizin beynəlxalq dəniz nəqliyyatı sistemindəki mövqeyini daha da gücləndirib və onun nüfuzlu tərəfdaş kimi qəbul olunmasına zəmin yaradıb.

1978-ci il tarixli "Dənizçilərin hazırlanmasına, onlara diplom verilməsinə və növbə çəkməyə dair Beynəlxalq Konvensiya"nın (STCW) tələblərinə dair aparılan beynəlxalq audit nəticəsində Azərbaycan yüksək nəticə qazanmışdır. Beynəlxalq Dəniz Təşkilatının ekspertləri tərəfindən keçirilən yoxlamalardan sonra Dövlət Dəniz Administrasiyasının fəaliyyəti təqdir olunmuş və Azərbaycanın adı təşkilatın "Ağ siyahısı"na daxil edilmişdir. Yeri gəlmişkən, "Dənizçilərin hazırlanmasına, onlara diplom verilməsinə və növbə çəkməyə dair Beynəlxalq Konvensiya"nın (STCW) "Ağ Siyahısı" Beynəlxalq Dəniz Təşkilatı (IMO) tərəfindən tanınan və konvensiyanın tələblərinə tam cavab verən ölkələrin siyahısıdır. Siyahıya daxil olan dövlətlərdə dənizçilərin təhsili, hazırlığı, qiymətləndirilməsi və sertifikatlaşdırılması beynəlxalq standartlara uyğun hesab edilir. "Ağ Siyahı" statusu həmin ölkənin dənizçilik sahəsindəki hüquqi, texniki və inzibati sisteminin effektivliyini və etibarlılığını təsdiq edir. Siyahıya daxil olan dövlətlərin dənizçi diplom və sertifikatları digər dəniz ölkələri tərəfindən tanınır və bu, həmin ölkədəki dənizçilərin beynəlxalq səviyyədə işləməsinə geniş imkan yaradır. Eyni zamanda, ölkənin dəniz nəqliyyatı sahəsində beynəlxalq əməkdaşlıq, ticarət və investisiya cəlbediciliyini də artırır. Azərbaycan siyahıya 2016-cı ildə Beynəlxalq Dəniz Təşkilatının Dəniz Təhlükəsizliyi Komitəsinin 96-cı sessiyasında qəbul olunan qərarla daxil edilmişdir. Bu, ölkəmizdə dənizçilərin hazırlanması sisteminin beynəlxalq standartlara uyğun qurulduğunu və uzun illər ərzində həyata keçirilən islahatların yüksək qiymətləndirildiyini göstərir. Azərbaycanın "Ağ Siyahı"ya daxil edilməsi həm də ölkəmizin dəniz nəqliyyatı sahəsində qlobal etimad qazandığını və bu sahədə etibarlı tərəfdaş kimi qəbul olunduğunu təsdiqləyir. "Ağ siyahı" statusu Azərbaycan tərəfindən verilən dənizçi diplomlarının və sertifikatlarının bütün beynəlxalq dəniz dövlətləri tərəfindən tanınması üçün hüquqi baza rolunu oynayır.

Qədim və zəngin dənizçilik ənənələrinə malik olan Azərbaycanda müasir tələblərə cavab verən, qabaqcıl dəniz dövlətləri ilə rəqabət apara biləcək dəniz nəqliyyatı sisteminin formalaşdırılması ölkəmizin bu sahədə strateji mövqeyini daha da möhkəmləndirir. Bu istiqamətdə həyata keçirilən məqsədyönlü siyasət, institusional islahatlar, texniki modernizasiya tədbirləri dəniz nəqliyyatı sahəsində əldə olunmuş nailiyyətlər gələcəkdə daha böyük uğurlara, innovativ layihələrə və davamlı inkişafa təkan verəcək.

**Nəzrin ELDARQIZI,**
**"Respublika".**